## QEYD VƏ ŞƏRHLƏR

**Ermənilər haqqında ingilislər**

səh. 439. "Corcian meyl" [The Georgian mail]: Tiflisdə ingilis dilində nəşr edilmiş qəzet.

səh. 440. "Ermənistan isə bizzat onlar üçün bir ..... ola bilər": arada bir söz silinmiş, oxunmur.

**Teleqraf xəbərləri**

səh. 442. "Qızıl-Arvad": Türkmənistanda şəhər; indiki Sərdar şəhəri.

"Matin" [Le Matin]: 1882-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

"Peti Parizyen" [Le Petit Parisien]: Parisdə 1876-1944-cü illərdə nəşr edilən gündəlik fransız qəzeti.

**Sülh ətrafında**

səh. 443. "Sen-Cermen müahidənaməsi": Birinci Dünya müharibəsindən sonra, 10 sentyabr 1919-cu ildə, Paris yaxınlığındakı Sen-Jermen sarayında Antanta ölkələri ilə Avstriya arasında imzalanan Sen-Jermen sülh müqaviləsi nəzərdə tutulur.

**Mətbuat**

səh. 448. "bizim rəyimizi təsvib edərək": qəzetdə "təsvib" sözü təhrif edilmişdir.

**Dağıstan əhvalı**

səh. 449. "aşağıdakı məsələlərin sərəncamını əhd edirlər": bundan sonrakı maddələr qəzetdə kiril əlifbasının hərf sırasına görə "a, b, v, q" kimi işarələnmişdir.

"... eylül 1919 sənə": qəzetdə belədir.

**Bakı xəbərləri**

səh. 450. "Tazəşəhər": Krasnovodsk (indiki Türkmənbaşı) şəhərinin bəzi mənbələrdəki adı.

"Qızılarbat" (yaxud Qızıl-Arvad): Türkmənistanda şəhər; indiki Sərdar şəhəri.

"Nəzarəti-cəlilə": Nazirliklər haqqında işlədilən ifadə qəlibi; "uca, cəlallı Nazirlik" mənasına gəlir.

**Fəhlə həyatı**

səh. 452. "Cavad bəy onu çağırıb": qəzetdə belə getmişdir: "Cavadbəyov çağırıb".

**Azərbaycanda**

səh. 456. "Slovo": Tiflisdə rus dilində nəşr edilən erməni qəzeti.





**Cümə, 24 oktyabr 1919-cu il, nömrə 304**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 29 məhərrəmül-haram sənə 1338. 24 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## ELAN

Bədəma [bundan sonra] Parlaman və Parlaman rəisi naminə idxal olunacaq ərizə, övraqi-rəsmiyyə [rəsmi sənədlər] Parlaman idarəsinə təslim etdirilməsi xüsusu elan olunur.

*İdarə müdiri:*
*[Məhəmməd ağa*
*Mustafa ağa oğlu] Vəkilov*
*Kargüzar: [Cəmaləddin]*
*Məhəmmədzadə*
*T-299*

* * *

Ümuri-Xeyriyyə Nəzarəti bununla elan edir ki, 20 min pud buğda və un almaq istəyir. Satmaq istəyən şəxslər lazımdır ki, nümunələri və qiymətləri noyabr ayının 1-nə kimi Ümuri-Xeyriyyə Nəzarətinə (Sadovaya küçədə nömrə 3) bağlı paketlərdə təqdim etsinlər.

Məzkur [deyilən] taxıl Nəzarətə Yevlax və yainki Bakı istasyonlarında təhvil verilməlidir.

*T-297*

## GÜC BİRLİKDƏDİR!

Xalq maliyyəsi lazımlı yerdə saxlanılarsa, xalq təsərrüfatı da intişar tapacaqdır [inkişaf edəcəkdir].

Azərbaycan Etibar, İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqı idarəsi Bakı şəhərində (Karantinni küçədə, 84 nömrəli evdə) 15 təşrini-əvvəl [oktyabr] 1919 sənəsi tarixindən fəaliyyətə başlamışdır. Qanunnamənin 27, 28 və 29-cu maddələrinə məbni [əsasən], İttifaqın sərmayəsi idxal olmaq haqqından (500 rublə), pay sərmayəsi və mənfəətdən saldırılmış məbləğdən hasil olur. Hər pay haqqı 2000 rublə təyin edilmişdir. Hamı etibar, istiqraz və əmanət cəmiyyətləri və Müəssislər İctimasının [Təsisçilər Yığıncağının] qət'i [qərarı] ilə özgə kooperativlər də ittifaqa üzv yazıla bilərlər.

Cari hesaba vaxtla xüsusi əşxasdan [şəxslərdən] və müəssisələrdən məbləğlər qəbul edilir. Verilmiş məbləğlər qeyri-məhdud surətdə və hər bir vaxtda nağd olaraq qaytarılır.

İttifaqın kontoru açıqdır səhərlər 10-dan 12-yə kimi, axşamlar 5-dən 7-yə kimi.

*İttifaqın İdarəsi*
*T-298*

**DÖVLƏT TEATROSU**

**Azərbaycan Dövləti Teatro heyəti**

Birinci teatro tamaşası cümə günü oktyabrın 24-ndə axşam Dövlət Teatrosunda Azərbaycan Dövləti Teatrosunun rəsmi-güşadı [açılış mərasimi] münasibətilə İsa bəy Aşurbəyli cənablarının əvvəlcə iki pərdədə yazmış olduğu, sonradan bir pərdə əlavəsiylə bir çox təğyir və təbdilatla [dəyişikliklə] təlif etdiyi 3 pərdəli **"Azərbay-can"** pyesası mövqeyi-tamaşaya qoyulacaqdır.

"Azərbay-can" pyesası başlanmamışdan əvvəl birinci pərdədə Azərbaycan türk səhnəsinin tarixi oxunacaq.

Biletlər oktyabrın 24-ndən teatrın kassasında satışa qoyulacaqdır. Tamaşa başlanacaq axşam saat 8-də.

Qeyd: Möhtərəm tamaşaçılara elan edilir ki, bundan sonra pərdələr təyin edilən zaman mühəqqəq qaldırılacaq.

Gələcək tamaşa oktyabrın 28-ndə "Gaveyi-ahəngər".

*T-293*

**SİRK "MODERN"**

Cümə günü oktyabrın 24-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəm-məl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Naməlum – Karl Muznik.

2-nci: Qara Maska – Ciovani.

3-ncü: Gənc Əli – Kalişeviç.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Gülməyin padşahı Vintsentso qardaşlarının benefisi hazırlanır.

*11478*

**AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA**

**Tənəffüsdən sonra**

Dəmiryol tariflərinin artırılması haqqındakı layiheyi-qanuniyyə 2-ci və 3-cü qiraətində qəbul edilir.

**Hökumətə sual**

Bədəhu [sonra] müxtəlif firqələrə mənsub 5 məbusun imzası ilə hökumətə verilmək üzrə Parlamana göndərilmiş olan bir sual oxunur:

*"Qanuni-ədalətin bəhəqq [layiqli surətdə] tətbiqinə məmur və müvəzzəf [borclu] olan, hər xüsusda həqqaniyyət və qanunun əmr etdiyi üzrə hərəkət etməyə məcbur olan Azərbaycan müddəiyi-ümumiliyində [prokurorluğunda] zühur edən sui-istemal [sui-istifadə] və rüşvətxorluq xüsusunda hər kəsin məlumatı olduğu halda, ətrafına topladığı bir çox şəxslərlə müştərəkən [ortaqlaşa] yüz minlərcə rüşvət alan və camaat haqqında xilafi-mədələt [ədalətə zidd] bir çox işlər görən sabiq müddəiyi-ümuminin yalnız istefa etməklə vəzifəsindən çəkildiyini xəbər aldığımızdan, bu xüsusda hökumətin nə nəzərlə baxdığını, şimdiyə qədər bu məsələ üzərində nə iş gördüyünü və görəcəyini öyrənmək istədiyimizdən, bu sualımızın hökumətə təbliğ buyurulmasını rica edəriz."*

**Qarabəyli Qara bəy** - Sualı müdafiə edərək deyir ki:





Hökumətə verilən bu sual məmləkətdə qanunsuzluq və rüşvətxorluq aləmində görülən işlərin ən müdhişini təşkil edir. Şübhəsiz, çox məmurlar rüşvət alırlar. Məsələn polis məmurları, Ticarət və Ərzaq Nəzarəti qulluqçuları da rüşvət alırlar. Doğrudur, bunların həpsinə cəza lazımdır. Fəqət onların əməlində öylə bir dəhşət və fəlakət görülməyir. Fəqət qanun və ədalət əsasını müdafiə vəzifəsi ilə müvəzzəf olan bir məmurun haqqında rüşvət sözünü danışmaq belə məmləkət üçün böyük bir təhlükədir. Müddəiyi-ümumi qanunun hamisidir [himayəçisidir]. Bu vəzifəni yalnız ən namuskar adamlara tapşırmaq lazımdır. Çün o işğal etdiyi mövqeyə görə hər kəslə istədiyi kimi rəftar etmək səlahiyyətinə malik olduğundan, çox namuskar olmalıdır ki, sui-istifadə etməsin. Heç yerdə eşidilməmişdir ki, müddəiyi-ümumi qanunu satsın, rüşvət alsın. Binaənileyh [ona görə], Parlaman üzvləri və bütün camaat bu işə sairləri kimi baxmayaraq tələb edir ki, hökumət dəxi bu məsələyə başqaları nəzəri ilə baxmayaraq, tez tədqiq və təhqiq etsin.

**Səfikürdlü Aslan bəy** (Ədliyyə naziri) - Möhtərəm məbuslar! Necə ki, doktor əfəndi buyurdu, əski zamanlarda hər məmləkətdə, hər məmurun haqqında rüşvət və sui-istifadə sözü bir balaca imkan daxilində hesab edilsə də, ədliyyə məmurlarının böylə hərəkəti heç vaxt mümkün hesab olunmaz. Çünki bir məmləkətdə ədliyyə işləri düzgün getməzsə, əsla yaşamaq mümkün olmaz. Odur ki, böylə şeylər nüdrətən [nadir] təsadüf olunacaq şeylərdəndir. Fəqət mütəəssifanə [təəssüf ki], bu kimi məmurların haqqında küçələrdə danışılır da, amma bilə-bilə ki, Nəzarət təhqiq edib cəza verər, Nəzarətə xəbər verməyirlər. Adətən müddəiyi-ümumi padşahlıq gözü hesab olunar. Biz və xüsusən mən həmişə çalışmışam və çalışırız ki, müddəiyi-ümumi bütün camaatın gözü olsun. Böylə olmazsa, camaat və millət yaşayammaz. Xüsusi olaraq Həsən Mustafayevin və bu müddəiyi-ümuminin işinə gəlincə, ərz etməliyəm ki, bir çox adamlar, hətta aranızda oturanlardan bəziləri çox danışmışlar ki, filankəs filan qədər Nikolay pulu alıb sair böyük məmurlarla yemişdir. Bunu kənarda danışırdılar. Amma başında bulunduğum Nəzarətə müraciət etməyirlərdi ki, iş rəsmi surət alıb tədbirlər görülsün. Nəhayət başladım, bu işi axtardım. Çox adamlara yalvarıb məlumat istədim. Axırda məlum oldu ki, Həsən Mustafayevin işi barəsində istintaq icra edilirmiş. Oktyabrın birində iş müddəiyi-ümumiliyə verilərək, ayın 4-də Həsən Mustafayev müddəiyi-ümuminin binagüzarlığı [sərəncamı] ilə həbs edilmişdir. O zaman çox adamlar, hətta burada oturanlardan da bəziləri onun buraxılmasını təvəqqe etdilər. Fəqət mən buraxmağa razı olmadım. Dedim, bu, müddəiyi-ümuminin işidir. Mən hər işə qarışa bilmərəm. Məsələn, neçə ay əvvəl də danışılırdı ki, Həsən Mustafayev bir salon kimi qurmuşdur ki, gecə və gündüz şəhər kübarı, hətta hökumətin böyük məmurları və Parlaman üzvləri oraya toplaşırlar, bilməm nələr edirlər. Yenə buna qarışmadım. Çünki mənim işim deyildi. Onu Daxiliyyə naziri edə bilərdi, amma mən yox. Doğrudan da mən hər işə qarışsam düz getməz. Hər kəsin öz işi var.

Xülasə, oktyabrın əvvəlində müddəiyi-ümumi əmr vermiş və 4-də Həsən Mustafayev həbs edilmişdir. Ayın 6-da müddəiyi-ümumi nədənsə müstəntiqə təklif etmişdir ki, həbs qərarı ayrı bir şeyə əvəz edilsin. Xülasə, zamin iləmi, nə iləmi, axır ki, Həsən Mustafayev həbsdən çıxsın.

Ayın 8-də 300 min manat rəhn (zaloq) alıb Mustafayevi buraxırlar. Ayın 10-da, ya 12-də (yaxşı yadımda deyil) mən eşitdim ki, pul alıb buraxmışlardır. Dərhal müavinimə tapşırdım ki, bu işləri təhqiq etsin. Ertəsi günü gördüm bir məbus telefon ilə mənimlə danışmaq istəyir. Əhvalı anlayaraq dedim əgər bu məsələ haqqında danışmaq istəyirsənsə, telefonla danışma, gəl beşəxsən danışaq. Həman adam digər bir şəxs ilə gəldi. Onlarla danışdıqdan sonra məsələyə rəsmi rəng verib gətirdiyi adamı da danışdırdım və filfövr [dərhal] adamlar göndərdim Həsən Mustafayev ilə həbsxana məmurlarını danışdırsınlar. Ayın 13-də rəsmi təhqiqat başlanıb 18-dək işlər qurtardı.

Əlbəttə, iş böylə olanda onun iş başında qalması artıq mümkün deyildi. Binaənileyh, istefa verdi. Mən dərhal istefanı qəbul etdim və digər bir adam çağıraraq müddəiyi-ümumiliyi ona mühəvvəl etdim [tapşırdım]. Eyni gün təhqiqat icrası qurtararaq işi xüsusi təftiş komissiyasına göndərdim. Bu surətlə 5 gün içində həm işləri təhqiq etdirdim, həm müd-dəiyi-ümumini istefaya çıxmağa vadar etdim, həm də işi məqami-aidinə sövq et-dim.

**Sədr** - Nazirin bəyanatından qane oldunuzmu?

**Sual verənlər** - Əvət, qənaətbəxşdir. İclas bununla tamam olur.

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz mövqifi tərəfindən alınmışdır)*

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Fin səvahili [sahilləri] dairəsində vuruşmalara başlanmışdır. Vuruşmalar müvəffəqiyyətlidir.

Pavlovsk və Detok kəndi ətrafında şiddətli vuruşma gedir.

Pskov dairəsində Qırmızı ordunun hərəkatı davam edir.

Vilen tərəfdə 50 fərsəx tulunda [məsafədə] bizim üçün müvəffəqiyyətli vuruşmalar olur. Bizim hissələrimiz 10 fərsəx irəliləmişlərdir.

Borisov dairəsində xırda vuruşmalar olur.

Kiyev dairəsi - Təbəddülatsızdır [dəyişiklik yoxdur].

Çerniqov dairəsi - Bizim hissələrimiz irəli yürüş edərək Çerniqovun 7 çağırım şimalında bir neçə qəryə [kənd] işğal etmişdir. Tərəfimizdən əsir, pulemyot və qeyri hərbi qənimətlər alınmışdır.

Dmitrovsk dairəsində - Qırmızılar üçün müvəffəqiyyətli vuruşmalar vaqe olmadadır.

Orlov dairəsi - Təşrini-əvvəlin [oktyabrın] 20-ci gecəsi bizim qəhrəman Qırmızı hissələrimiz tərəfindən gecə hücumunda Oryol şəhəri işğal edilmişdir. Pərakəndə edilmiş düşmən cənub-şərq tərəfinə ricət edir [çəkilir].

Novoselsk və Yelsk dairəsində müvəffəqiyyətli vuruşma vardır.

Voronej dairəsində yoldaş Budentsovun təhti-komandasında [komandası altında] 12 bölükdən ibarət olan Mamontovun qüvvəsini pərakəndə etmişdir. Tərəfimizdən top və pulemyotlarla 2 zirehli qatar alınmışdır. Bunlardan əlavə, 4 top və bir çox mitralyoz və bir çox hərbi qənimət alınmışdır. Hələlik qəhrəman süvari alayımız öz yürüşündə davam edərək Voronejə yaxınlaşmaqdadır.

Boquçar dairəsində bizim hissələrimiz yürüşə keçərək düşməni cənub-qərbə sıxışdırmaqdadır.

Ust-Medved dairəsində qırmızıların irəli hərəkətləri davam edir.

Orenburq dairəsində düşmənin hücumu dəf edilərək 80 çağırım geriyə atılmışdır. Bizim hissələrimiz əks-hücuma keçərək əsir və 15 pulemyot qənimət almışdır.

Ural dairəsi - Quryevdən bir neçə çağırım şimal-şərqə İlbansk yanındakı istehkamat tərəfimizdən alınmışdır.

**Revel əhvalı**

Revel - Belarusların Reveli [Tallini] işğalından bəri Belarusiyada ticarət həyatı büsbütün ölmüşdür. Belarusca, rusca, almanca və yəhudicə qəzetələrin nəşri mən' [qadağan] edilmişdir.

**Protesto tətili**

Nauen - Saar hövzəsi və ona mülhəq həvalinin [bitişik yerlərin] etiraz tətilinin düşənbə [bazar] günü başlayacağı gözlənir. Lorendə tətillər yavaş-yavaş başlanmaq üzrədir.

**Fransa mətbuatı**

Məclisi-Məbusan ilə Məclisi-Əyan arasında əfvi-ümumi [amnistiya] qanunun mətninə dair etilaf [razılıq] hasil olmuşdur. Dün Puankare mütəntən [təntənəli] bir surətdə Paris şəhərinə Hərbi Xaç nişanı təslim etmişdir.

**İspaniya kralı**

İspaniya kralı səyahəti əsnasında qeyri-rəsmi olaraq bu gün sabahleyin Parisə varid oldu [gəldi].

**Denikin ordusunun Oryolu işğalı**

Denikin ordusu Oryol şəhərini işğal etmişdir.

**Petroqradın işğalı şayiəsi**

Yek-digərinə bərəks [bir-birinə zidd] olan xəbərlər Yudeniç tərəfindən Petroqradın alınması xəbərini təsdiqə imkan verməyir. Ancaq mövsuq [təsdiqlənmiş] surətdə Yudeniçin bir neçə müvəffəqiyyəti olduğu məlumdur. Dün Sazonovun London təvəssütü [vasitəçiliyi] ilə Petroqradın alınmasına dair teleqraf aldığı şayiatı şəhərdə dövran edirdi. "Peti Parizyen" bu xüsusda Sazonov ilə müsahibədə bulunmuş və Sazonov heç bir teleqraf almadığını söyləmişdir.

*(Qafqaziya Müttəfiqlər heyəti əxbaratı)*

**Fiume**

Press-büro [mətbuat bürosu] guya İtaliya, Serbiya və Cənubi slovaklar arasında etilaf [razılaşma] hasil olduğuna dair xəbərləri təkzib edir. Büro bu xüsusda heç bir müzakiratın olmadığını belə göstərir.

**Lehistan donanması**

Varşava Məclisi-Əyanına Lehistan [Polşa] hərbi donanmasının təşkil edilməsi layihəsi təqdim edilmişdir. Donanma 4 kruvazer [kreyser] və 12 minonosdan ibarət olacaqdır. Layihənin müzakirəsinə Versal müahidənaməsinin [sazişinin] təsdiqidən sonra başlanılacaqdır. Donanma nəfəratı 3200 əsgər və 150 zabit olacaqdır. Hərbiyyə Nazirliyinə sabiqdə Rusiya-Yaponiya müharibəsində zirehli hərb gəmilərindən birisinin komandiri olan admiral Porembskinin adı deyilmədədir.

*(Gürcü teleqraf acentəliyi)*

**Yudeniç ordusu Petroqrad altında**

Yudeniç ordusu həqiqətən Petroqrad yaxınlığındadır. Qatçinadan sonra Krasnaya Qorka və Krasnoye Selo alınmışdır. Bunların alındığı vaxtda Qırmızı ordu Nevadan şimala təxliyə və nəql edilirdi.

**Amerika qoşunları və Dansiq, Sileziya və Teşenin ilhaqı**

Brestə gəlməkdə olan 5 min əsgər yoldadır. General Bliss teleqrafla Hərbiyyə Nəzarətindən Dansiq, Sileziya və Teşenin Müttəfiq ilhaqında əsgərlərə iştirak etməyə izin verilməsini isticvab etmişdir [soruşmuşdur]. Blissin isticvabı Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] sülh müahidənaməsini hələ təsdiq etmədiyi üçün qüvvəyə minəcək layihəyə istinadən olmuşdur. Sülh müahidənaməsi təsdiq edilmədiyi və Cəmahiri-Müttəfiqənin hərbi bitirməmiş olduğu üçün Blissin böylə siyasət əleyhində olduğunu söyləyirlər.

Blissin böylə vəziyyəti heyət sədri [Frenk] Polkun Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] (?) əsgərlərindən mənfəətdar olmasına dair Sülh Konfransını xəbərdar etməsindən nəşət etmişdir [irəli gəlmişdir]. Buna görə də Foş, Müttəfiq qoşunlara tətbiq ediləcək bir layihə tərtib vermişdir.

Polkun sözləri Fransa mətbuatının heyrətini mövcib [heyrətinə səbəb] olmuşdur. Polkun dediklərində sülh müahidənaməsinin bilatəğyir [eynilə] təsdiqini görürlər.

Blissin hərb qurtardıqdan sonra Amerika qoşunlarının ilhaqda iştirak etmələri əleyhinə olduğundan fransızlar bəhs etmədədirlər. Məlum olduğu üzrə, Cəmahiri-Müttəfiqə rəisinin nəzərincə, əsgərlərin hərbdə iştirakı Müttəfiqlərin hərbdən sonrakı layihələrinə dəxi iştirak etməyə Cəmahiri-Müttəfiqəni məcbur edir.

Dansiq, Sileziya və Teşe arasında Foş tərəfindən təqsimi məlhuz olan [bölünməsi nəzərdə tutulan] Amerika qoşunlarına əlavə, Brestdə olan bəhriyyunlar [matroslar] Foş tərəfindən Şlezviqə göndəriləcəkdir.

Hökumətə yaxın olan Fransa rəsmi qəzetəsi yazır:

*"Cəmahiri-Müttəfiqə rəisi hərgah bu məsələdə qələbə çalmamışsa və sülh müahidənaməsi təsdiq edilməmişkən Amerika qoşunlarının ilhaqda nə surətlə iştirak edəcəyi məlum deyildir. Qanun üzrə Bliss büsbütün haqlıdır."*

## SÜLH ƏTRAFINDA

**Yaxın Şərq xüsusunda Fransa-İngiltərə etilafı**

"Tan" qəzetəsinin verdiyi məlumata görə, Yaxın Şərq məmləkətini işğal etmək xüsusunda Klemanso ilə Lloyd Corc arasında etilaf [razılıq] hüsula gəlmişdir. Britaniya qoşunları Suriya ilə Fələstin arasındakı sərhədlərdən şimalda olan bütün dairəni təşrini-saninin [noyabrın] əvvəlinə kimi təxliyə etməlidir. Bu sərhəd müvəqqəti olduğuna görə, onun xətti-hüdudunu sonra da təbdil etmək [dəyişdirmək] mümkün olacaqdır. Mosul şu əraziyə daxil edilməyir. Orada nizam və asayiş bərpa etmək məsuliyyəti İngiltərə öhdəsinə qalır.

Britaniya qoşunlarının getməsi Dəməşq, Hələb şəhərlərinin və 1916-cı sənə müahidənaməsi mövcibincə [sazişinə əsasən] müstəqil ərəb dövləti təşkili tələb edilən dairənin başqa yerlərinin Fransa qoşunları tərəfindən işğalına səbəbiyyət verməyəcəkdir. Orada təşəkkül edən ərəb dövləti Fransanın müavinət və məsləhətini rica etməyə məcbur olacaqdır. İngiltərə qoşunlarını dəyişəcək dairə içinə Kilikiya da daxildir. Oranı Fransa qitəatı [hərbi hissələri] işğal etmişdir.

**Klemanso və marşal Foşun əziməti**

Klemanso və marşal Foş kanuni-əvvəlin ibtidalarında [dekabrın əvvəllərində] Amerikaya əzimət edəcəklərdir [gedəcəklər].

## QƏZETƏLƏRDƏN

**5 yüz milyon**

Lenin tərəfindən Petroqrad və Moskvada əmrnamə yapışdırılaraq denilir ki, qara əşqiyanın başçıları Rodzyanko, Denikin, Kolçak, Yudeniç və qraf Palen olduğuna görə, bu cinayətkarlar qətl və ya həbs edilməlidirlər. Hər kəs onları qətl və ya həbs edərsə, ona 5 yüz milyon mükafat veriləcəkdir.

**Bolşeviklərin maliyyəsi**

Maliyyə komissarı Krestinski 1919-cu sənə ikinci yarımilinin büdcəsini nəşr etmişdir.

Varidat: gəlir vergilərindən - 1 milyard 739 milyon rublə. Bilvasitə vergilərdən - 2 milyard 257 milyon rublə. Gömrük rüsumatından - 1 milyondan az (1914-cü sənəyə qədər 300 milyon). Dövləti ticarətxanalardan - 810 milyon rublə. Milliləşdirilmiş əmlakdan - 15 milyard. Ümumi varidatın yekunu - 20 milyard rublə. Məsarif [xərclər] isə - 50 milyard 702 milyon rublə. Böyləliklə, bolşevik büdcəsinin varidatı ilə məsarifi arasında 30 milyard açıqlıq görülür. Bolşeviklərin məxarici atidə [aşağıda] göstərilən rəqəmlər üzrə izdiyad etmədədir [artır]:

1918-ci sənə kanuni-sani - həziran [yanvar - iyun] - 17 milyard, 1918-ci sənə təmmuz - kanuni-əvvəl [iyul - dekabr] - 29 milyard, 1919-cu sənə kanuni-sani - həziran - 50 milyard.

Müharibə məsarifi - 12 milyard. Əhaliyə ərzaq - 8 milyard. Ali Ərzaq Şurası üzvlərinə maaş - 5 milyard 814 milyon rublə. Milliləşdirilmiş ticarətxanaların fəhlələrinə maaş - 5 milyard rublə. Dəmiryol xidmətçiləri maaşı - 5 milyard. Xalq Komissarları Şurasının Mərkəzi Komitəsi əzasına [üzvlərinə] maaş - 459 milyon. Çrezvıçayka məsarifatı - 342 milyon. Maliyyə Komissarlığı məsarifatı - 1 milyard 403 milyon. Səhhəti-Ümumiyyə məsarifatı - 1 milyard 227 milyon. Xeyriyyə işləri məsarifatı - 1 milyard 619 milyon.

İstiqraz Təsviyəsi [Borcların Ləğvi] Komissiyası üzvlərinin maaşı - 100 milyon rublə.

**Almaniya müstəmləkələrinin müqəddəratı**

Avstraliya Parlamanının imza etmiş olduğu etilafnamə mövcibincə [razılaşmaya əsasən], əvvəlcə Almaniya dövlətinə mütəalliq [məxsus] olan Bəhri-mühiti-Hindidəki [Hind okeanındakı] Samoa adaları Avstraliya və Yeni Zelandiya hökumətləri təhti-nəzarətinə [nəzarəti altına] keçirlər.

**Fransa müharibədən nə qazanmışdır?**

Sülh müahidəsi mövcibincə [sazişinə əsasən] Fransanın nə qazandığı haqqında fransız mətbuatı böylə məlumat verir:

1871-ci sənə müharibəsində qeyb etmiş olduğu Elzas-Loreni Fransa geri almış, 1815-ci sənədə qaib edilən Saar hövzəsi dəxi iadə edilmişdir [qaytarılmışdır]. Mərakeş Almaniya nüfuzundan azad edilmişdir. Fransanın iqtisadiyyat mənabeyi [mənbələri] artmış, məadin [mədən] işləri iki qat izdiyad etmiş [çoxalmış], mənsucat [trikotaj] üçdən bir hissə irtifa etmiş [yüksəlmiş], kömür qıtlığını da Saar kömür mədəni ödəyəcəkdir. Lorenin bərəkətindən filiz işlərində Fransa Avropada birinci mövqe tutmuş olacaqdır.

**Lorendə tətil**

Bolşevik xəbərlərinə görə, Lorendə 53 min filizçi fəhlə maaşlarının təzayüdünü [artırılmasını] tələblə elani-tətil etmişlərdir. Fransa hökuməti güzəştdə bulunmaq istəməyir. Tətilçilərə fəhlələr də mülhəq olmuşlardır [qoşulublar]. Tətilçilərə qarşı Fransa hökuməti qüvayi-müsəlləhə istemal edir [silahlı qüvvə işlədir]. Fəhlələrlə əsgərlər arasında böyük müsadimələr [toqquşmalar] olmuş və fəhlələrdən bir çoxları yaralanmışlardır. Mülhauzendə qaz zavodu əmələləri də tətil elan etmişlərdir.

**Erməni məsələsi**

"Matin" qəzetəsinin Vaşinqtondan müxabiri xəbər verir ki, Xariciyyə İşləri Komisyonu – ki erməni məsələsinə baxmağa dəxi müvəzzəf edilmişdir – Ermənistana iyirmi min nəfərdən ibarət ordu göndərməyi lazım bilmişdir.

"Matin" kəndi tərəfindən əlavə edir ki, komisyonun bu qərarı Məclisi-Əyan [Senat] tərəfindən qəbul edilməsə gərəkdir. Zira Məclisi-Əyan əzası [üzvləri] Cəmahiri-Müttəfiqənin [Birləşmiş Ştatların] xarici dövlətlər işlərinə müdaxilə etməsinə ziddir.

**Rusiya ablukasına qarşı protesto**

Bolşevik teleqrafnamələrində görünən xəbərlərə nəzərən, Rusiya ablukası [blokadası] xüsusunda bitərəf dövlətlərə və Almaniyaya verilən Müttəfiqlər notası Fransa sosialistlərinin və İngiltərə fəhlə firqəsinin şiddətli protestosunu mövcib [protestosuna səbəb] olmuşdur. Kronştadtın bombardmanı Fransa və İngiltərə fəhlələrinin bir az daha hiddətini artırır. Bu yaxın vaxtda Lloyd Corc söyləmişdi ki, İngiltərə hökuməti minbəd [bundan sonra] Rusiyada hər dürlü macəradan imtina edəcəkdir. Halbuki şimdiki macəraçılıq heç bir zaman görükməmişdi. Amerika radiosu xəbər verir ki, fəhlələr protestolarını izhar etmək üçün müsəlləh olaraq açıqcasına çıxacaqlardır.





## DAĞISTAN

**Dərbənddə**

"Terski kazak" qəzetəsinin müxabiri yazır:

Dərbənd şəhəri 25 günlük bir mühasirədən sonra alınmış və şəhərin yuxarı hissəsi yenidən əsgərlərimiz tərəfindən işğal edilmişdir. Dərbəndin yuxarı hissəsində yerləşmiş qaçaqları böyük müşkülatla yerlərindən çıxarmaq mümkün olmuşdur. Yaxınlaşmaq mümkün deyildi. Hər bir dam, hər bir dar küçələr ölüm təhlükəsi təşkil edirdi. Kazaklar şəhərin işğal edilən hissələrini üsyançılardan hücumla almağa cürət etməyib, ancaq hər təhacumla [qarşılıqlı hücumla] qarşı şəhərin aşağı hissəsini saxlamağa kifayət edirlərdi. Sahildə dayanan hərbi gəmilər şəhəri və ətraf dağları atəşə tuturlardı.

Böylə bir vəziyyət, bombaatan makinalar götürülməmiş olsaydı, daha bir çox müddət davam edəcəkdi. Şəhərin müsəlman hissəsindən bir neçə məhəllə uzağa beş bombaatan qoyulmuşdu. Bombaatanlar işə başlayarkən üsyançılar tutmuş olduqları səngərləri buraxıb dağlara qaçmağa başlamışlarmış.

Dərbəndin sülhlə imrari-həyat edən [həyat sürən] müsəlmanları ağ bayraq göstərərək təslim olmuşlardır. 800 meyit tapılmışdır. Mühafizə əsgərlərimizdən 60 nəfər ölən və yaralanan olmuşdur. Fərar etmiş üsyançılar özləri ilə 3 top dəxi aparmağa müvəffəq olmuşlardır.

**Petrovskda**

"Terski kazak" qəzetəsi 18 təşrini-əvvəldən [oktyabrdan] yazır:

Eylülün [sentyabrın] 25-də teleqraf xətti ilə dəmiryolu təmir edən zirehli qatar Teymurxanşuradan Petrovska keçmişdir. Qatar keçdikdən sonra dəmiryol bir çox yerlərdə yenidən təxrib edilmişdir. Ayın 26-da Teymurxanşuraya rels və şalman aparan bir zirehli dəxi hərəkət etmişdir. Petrovsku hər bir hücuma və ya iğtişaşa qarşı mühafizə və müdafiə etmək üçün zabitlərdən, hərbi məmurlardan, hərəkət ordusunda bulunmayan əsgərlərdən və könüllü əhalidən müdafiə qüvvəsi təşkil edilmişdir. Şəhər 6 his-səyə bölünmüş və bütün yazılanlar siyahıya daxil edilmişlərdir. Yuxarı sinif mütəallimlərindən [şagirdlərindən] də bir çox yazılanlar vardır.

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

- Rəisi-vükəlanın [Baş nazirin] Ticarət və Sənaye və Ərzaq nazirinin Lənkəran qəzasından ərzaq çıxarılmasının mən' [qadağan] edilməsi haqqındakı qərarın[ın] ləğvinə dair təqriri [rəsmi müraciəti] nəticəsində qərari-məzkurun [deyilən qərarın] ləğvi qərara alınmışdır.

- Maliyyə nazirinin ingilis ərkani-hərbi [qərargahı] tərəfindən çıxarılacaq mallardan rüsum alınması haqqındakı təqriri nəticəsində Maliyyə Nəzarətinin tədabirini təsviblə [tədbirlərini bəyənməklə], Tiflisdəki ingilis nümayəndəsi general Brefə xəbər verməli ki, Azərbaycanla ingilis ştabı beynində [arasında] malların rüsumdan

azad olunması haqqında heç bir təhriri [yazılı] müqavilənamə olmamışdır. Binaənileyh [ona görə], bu vaxtadək toplanmış 36.701.800 manat 50 qəpik ştab tərəfindən verilməlidir.

- Maliyyə Nəzarətinin spirto və istehsalatı rüsumunun artırılması haqqındakı təqriri isteması [dinlənməsi] nəticəsində qanun layihəsinin təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Ticarət və Ərzaq nazirinin Rusiya Zemski İttifaqı nümayəndəsi Rudinovskinin mal mübadiləsi haqqındakı təklifinə dair təqriri isteması nəticəsində Vükəla Şurası kəndi rizasını verməyi qərara almışdır.

- Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinin Dağıstan qaçqınlarına müavinət haqqındakı təqriri isteması nəticəsində Zəngəzur qaçqınlarına müavinət üçün verilmiş məbləğdən məzkur [deyilən] qaçqınlar üçün sərf olunması qərara alınmışdır.

- Maliyyə nazirinin Batum konsulluğu nəzdində Ticarət şöbəsində Maliyyə Nəzarəti nümayəndəliyi təşkili haqqındakı təqriri isteması nəticəsində qərari-məzkurun təsvib və təsdiqi üçün Məclisi-Məbusana idxalı və o vaxtadək Maliyyə Nəzarətinə 54.000 manat buraxılması qərara alınmışdır.

- Ticarət və Sənaye nazirinin Zakaspi hökuməti tərəfindən həcz [müsadirə] edilib Bakı Zakaspi konsulu naminə göndərilmiş malların verilməsi haqqındakı təqriri isteması nəticəsində məsələnin Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi] və Dövləti Müfəttişliyə verilməsi qərara alınmışdır.

- Maliyyə nazirinin Məclisi-Məbusanın 25 yanvar qərardadı üzrə Bələdiyyə İdarəsinə təxsis qılınmış [ayrılmış] 2.200.000 manatdan verilməmiş 1.200.000 manatın verilməsi haqqındakı təqriri isteması nəticəsində Bələdiyyə İdarəsinə veriləcək məbləğin verilməsi və Səhhəti-Ümumiyyə Nəzarəti tərəfindən Bələdiyyə İdarəsinə verilmiş 1 milyonun verilməsi Maliyyə Nəzarətinə tapşırılması qərara alınmışdır.

**NƏZARƏTLƏRDƏ**
**[NAZİRLİKLƏRDƏ]**

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən qaçqınların əhvalını məhəllində [yerində] təhqiq üçün Yalama mövqifinə [stansiyasına] göndərilmiş Bakı nahiyə müfəttişi orada toplanmış qaçqınların əhvalının tibbiyyə müavinəti yoxluğundan dəhşətli bir surət kəsb etdiyi [aldığı] haqqında Nəzarətə məlumat təqdim etmişdir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Səhhəti-Ümumiyyə Nəzarətinə müraciətən rica etmişdir ki, məhəlli-məzkura [deyilən yerə] bir doktorla bir doktor müavini və lazımi miqdarda dəva göndərilsin.

- Lənkəran nahiyə müfəttişinə Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Potubəyli köyünə məmur göndərib əhvalı məhəllində təhqiq etmək haqqında düsturüləməl [təlimatnamə] göndərmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti cənbindəki [nəzdindəki] Beynəlidarə Komisyonu [İdarələrarası Komissiya] üzvü Mustafa bəy Əlibəyov məzkur Nəzarət [deyilən Nazirlik] tərəfindən Zəngəzur qaçqınları ehtiyacı rəfi [aradan qaldırılması] üçün İranın Rəşt şəhərindən bəzzaziyyə malı [arşınmalı] almağa məmur edilmişdi. Bəzzaziyə malı alınıb saxlanıldığından dolayı, Nəzarət İran konsulgərisinə müraciətən, məzkur malın buraxılması haqqında lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

**MÜXTİRƏ**

Qars nahiyəsi Müsəlman Milli [yerli] Şurası müvəkkili Azərbaycan hökuməti Xariciyyə Nəzarətinə Ermənistan hökumətinin Qars nahiyəsi və İrəvan quberniyası müsəlmanları haqqında gördüyü məzalim [zülüm] və vəhşiliyi havi [ehtiva edən] işbu məzmunda bir müxtirəni [xəbərdarlıq məktubunu] təqdim etmişdir:

Biz Qars nahiyəsi müsəlmanları Şurasının müvəkkilləri Şura tərəfindən həzrətlərinizə və doğma Azərbaycan hökumətinə Ermənistan tərəfindən qəsb edilmiş nəvahinin [nahiyələrin] müsəlmanları[nın] əhvalı haqqında işbu məlumatı verməyi vəzifəmizədd [hesab] ediriz.

Aləmşümul müharibənin əvailində [əvvəllərində] belə mübarizə kiçik millətlərin azadlığı üçün olduğu elam edilmişdi [bildirilmişdi]. 1917-ci sənəsinin Rusiya inqilabi-kəbiri [böyük inqilabı] bütün əski əsasları təxrib edərək Rusiya dairəsində olan millətlərin kəndi müqəddəratlarını həll etməyə muxtar [ixtiyar sahibi] olacaqları şüari-müqəddəsini [müqəddəs şüarını] meydana çıxardı.

Müharibənin nəticəsində Paris Sülh Konfransı yenə kiçik millətlərin mənafeyi mühafizəsini kəndi fəaliyyətinin başlanğıcı olaraq qərar verdi.

Biz Qars və Batum nəvahisi müsəlmanları (türkləri) də Mərkəzi Rusiya hökuməti bərbadlığından və Qafqaziya cümhuriyyətləri istiqlalından və müharibə nəticəsində türk ordusu təxliyəsindən sonra kəndi qüvvəmizlə məzkur nəvahidə [deyilən nahiyədə] nizam və asayiş bərpa edərək kəndi müqəddəratımızı həll etdik. Bizə bu haqda kənardan heç kəs müavinət etməmişdi.

Bundan sonra biz rəsmi və beynəlmiləl bir surətdə hüququmuzun Paris Sülh Konfransı tərəfindən təsvib və təsdiqini bəkləməyə başladıq. Zira konqrenin nərədə olursa-olsun yaşayan kiçik millətlərin hüquq və mənafeyi mühafizi olacağı dünyaya elam edilmişdi.

İşbu bizim sakit yaşadığımız bir zamanda ingilis komandanlığının müsaidəsi ilə aprelin 12-də ermənilərin qeyri-müntəzəm quldur dəstələri Ermənistan hökuməti tərəfindən Qars nahiyəsi qubernatorluğuna təyin edilmiş Karqanov ilə general Osipyan ölkəmizə soxulmağa başladılar.

Qarsın alınmasının birinci günlərində ingilis komandanlığı bizə məlum etmişdi ki, idarənin başında xüsusi bir Şura duracaqdır ki, oraya 9 nəfər müsəlman, 4-5 isə erməni daxil olacaqdır. Bir həftədən sonra bu da dəyişdi. Aprelin 19-dan etibarən "qubernator" Karqanov idarəni kəndi əlinə aldı. İdarənin ikinci günündən başlayaraq müsəlmanlar erməni idarəsinin dəhşətlərini hiss etməyə başladılar.

Aprelin 20-də Qars dəmiryolunun Başgədiklər mövqifində [stansiyasında] 7 nəfər müsəlman vaqondan çıxarılıb vəhşiyanə bir surətdə qətl edilərək meyitləri üzərində də bir çox vəhşətlər yapıldı. İn-

gilis nümayəndələri kapitan Prussor və leytenant Vatson və nahiyə milis naçalniki miralay [polkovnik] Şaqubatov, Şörəyel dairəsi naçalniki poruçik Karibyans və Qars nahiyəsi Müsəlman Şurası iki nəfər nümayəndələrindən mürəkkəb [ibarət] bir komisyon tərəfindən rəsmi surətdə təhqiq edilmişdi ki, işbu vəhşət Karç-Murat nam bir quldurun dəstəsi tərəfindən icra edilmişdir. Təhqiqatın surəti ingilis komandanlığı, Gümrü (Aleksandropol) şəhəri müddəiyi-ümumisi [prokuroru] və Müsəlman Şurasında saxlanılmışdır.

Aldığımız məlumati-mövsuqəyə [etibarlı məlumata] görə, "qubernator" Karqanovun deməsinə binaən [əsasən], quldur Karç-Murat cəzalandırılmadığı kimi, Ermənistan paytaxtı İrəvan küçələrində azad surətdə gəzməkdə davam edir.

"Qubernator" Karqanov aşkara məlum edir ki, Ermənistan hökuməti 20-25 nəfərdən ibarət Karç-Murat və həmpasını [yoldaşlarını] tövqif və təcziyədən [tutmaqdan və cəzalandırmaqdan] acizdir.

Bu hadisatdan bir zaman sonra Qars oblastı Qızıldaş köyü sakini Allahverdi Ələsgər oğlu nam bir nəfər hökumətə müqavimət etdiyi üçün erməni hökumət məmurini [məmurları] tərəfindən tövqif [həbs] edildi. Müstəntiq məzkurdan [deyilən şəxsdən] 70.000 manat rüşvət aldıqdan sonra Allahverdini azad etdi. Müstəntiq Yegyansın əleyhinə edilən müarizəyə [etiraza] baxmaq üçün Karqanov tərəfindən Asan Cəlalyans nam bir nəfər iş təhqiqinə məmur edildi. Təhqiq edildikdən sonra Yegyans xidmətdən çıxarılıb məhkəməyə verilmək əvəzində Qars oblastı milisiya müdirliyinə təyin edildi.

Sonra Qars okruqunun Kınak köyü müsəlmanlarının 600 heyvanı, 64 rəs [baş] atları oğurlandı. Müsəlmanlar müdafiədən aciz olduqları kimi, erməni hökuməti məmurini quldurlara müavinət də edirdilər. Qaramallar bu vaxtadək qaytarılmamışdır.

Erməni Cümhuriyyəti daxilində Ermənistan tərəfindən qəsb edilmiş həvali [ərazi] daxilində yaşayan müsəlmanlar əleyhinə çıxarılan böylə işlərin miqdarı həddən ziyadədir ki, xüsusi siyahı üzrə təqdim edilir:

Bədbəxtanə, ermənilərlə qonşuluq daxilində yaşamaq məcburiyyətində qalmış biz müsəlmanlar erməni sərxeyllərinin [dəstəbaşılarının] müsəlmanları qırıb, yerlərini də ermənilərlə iskan etmək [yerlərinə erməniləri yerləşdirmək] siyasətlərini qanımız bahası ilə öyrəndik. Bu təriq [yol] ilə daşnak hökuməti əhalisi sırf erməni olacaq "Ermənistani-kəbir" ["Böyük Ermənistan"] yaratmaq xəyalındadır.

İşbu siyasətə müharibə zamanı da Qars və Şərqi Türkiyə vilayətlərində də yer verilirdi. Rusiya inqilabi-kəbirindən [Böyük Rusiya inqilabından] sonra 1917-ci sənəsində Rusiya Müsəlmanlarının Birinci Qurultayı ermənilərin şərqi vilayətlər müsəlmanlarını qırmaqları haqqında məlumat alaraq, oraya təhqiqat üçün xüsusi bir heyət ezam etdi.

İşbu heyət, məhəllində [yerində] ermənilərin vəhşiliklərini havi [ehtiva edən] iki ay zərfində geniş məlumat toplamağa müvəffəq oldu. Məzkur [deyilən] heyət sədri Osman Tokumbet Kazandakı İkinci Müsəlman Qurultayında vəhşiliklər haqqında böyük məruzə təqdim etmişdi. Bunun nəticəsində müvəqqəti hökumət daşnak nümayəndəsi general-qubernator Averyan[ov] və onun müavini doktor Zavriyev iş başından qovularaq, müsəlmanların işləri bir qədər yüngülləşdirilmişdi.

Ermənistan hökumətinin böylə fəaliyyəti nəticəsinin səmərələrindən olaraq hal-hazırda Qars nahiyəsində Eçmiyədzin və Sürməli qəzalarından gəlmiş 91 təxrib edilmiş müsəlman köylərinin 25 minə qərib qarı və çoluq-çocuqdan ibarət qaçqınları imrari-həyat edir [ömür sürür]. Bu bədbəxtlər hal-hazırda ac-yalavac dolaşaraq aclıq ölümünə məruz qalmışdırlar.

Bunlara dair həzrətlərinizə təqdimi lazım yerlərdə bərvəchi-ati [aşağıdakı kimi] məlumat verilib, beynəlmiləl bir miqyasda lazımi iqdamatda [təşəbbüslərdə] bulunmağı rica edəriz, əfəndim.

1) Ermənistan və Ermənistan tərəfindən işğal edilmiş ərazidə müsəlmanların itlaf edilmələrinin [öldürülmələrinin] önü alınması;

2) Ermənistan Cümhuriyyəti hökumətindən bunları tələb etməli:

a) Əhalinin hankı qeyri-qanuni fəaliyyətləri Ermənistan hökumətini İrəvan quberniyasının Eçmiyədzin və Sürməli qəzalarındakı 91 müsəlman köylərini atəş və qılınca məruz etməyə vadar etmişdir?

b) Qarsa fəqət qadın və çoluq-çocuq gəldiyindən, işbu 91 köyün erkəkləri nərədə qalmışlardır?

c) Lazımlı yerdə 25 min qaçqınların Gürcüstan təriqi [yolu] ilə Azərbaycana buraxılmaları haqqında təşəbbüsatda bulunulması.

ç) Lazımlı yerlərdə qaçqınları aclıq ölümündən təxlis [xilas] üçün birinci ehtiyacatın dəfinə lazım ərzağın təmini haqqında təşəbbüsatda bulunmalı, bundan ötrü də Qars oblastına Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] nümayəndələrini ezam etməlidir.

d) Qaçqınlar yolunda iaşə məntəqələri güşadı [açılması] üçün təşəbbüsatda bulunmalı.

Biz Qars oblastı Müsəlman Milli Şurası nümayəndələri bütün müsəlman əhali ilə bərabər inanırız ki, doğma Azərbaycan və onun hökuməti, həzrətlərinizin vasitəsilə ciddi əhvalımızı eyiləşdirmək üçün lazımi tədabir ittixazını [tədbirlər görülməsini] qərara alacaqsınız, əfəndim.

*Qars oblastı Müsəlman Milli Şurası*
*müvəkkilini [vəkilləri]:*
*A. Qazızadə,*
*Əsədulla İskəndərbəyzadə.*

Müxtirə ilə bərabər, Nəzarətə iki siyahı da təqdim edilmişdir. Birisi Ermənistan hökumətinin işğal etmiş [olduğu] nəvahidəki [nahiyələrdəki] qeyri-qanuni işlərinin siyahısıdır:

1) 2.170 qoyun, 10 rəs [baş] qaramal mayısın əvailində [əvvəllərində] Qars nahiyəsinin Çullu, Zaruşad dairələrində ikinci briqada saldatları tərəfindən aparılmışdır.

2) General Osipyans komandası altındakı ikinci briqada – Böyükçatax təxribi; burada beş nəfər öldürülüb, beş ev yandırılıb, köylər bombardman edilərək malları qarət edilmişdir.

3) Qars şəhərində Kərəcan köyü əhalisindən iki nəfər müsəlmanın atları ilə yox olması;

4) Kağızmandan Qarsa daş yol ilə gələn iki kişi, üç qadının qətli;

5) Soğanlıq dairəsinin Qatrandı kəndi

əhlinin öldürülüb, qafasının əzilib, başı kəsilməsi;

6) Qars nahiyəsinin Qalaköy kəndinin təxrib və yəğması [talanı];

7) Gölbulaq kəndi əhlinin Ağbaba dairəsi naçalniki Ter-Gevorkov tərəfindən öldürülməsi;

8) Ərdahan okruqunun Gölə dairəsi milisiyaları tərəfindən Rəhimli və Kərənlik köylərinin iki nəfər müsəlmanları tutulub, Dəmirqapı köyünə gətirilib qətl edilmələri;

9) Qars nahiyəsi Müsəlman Milli Şurasının üç nəfər üzvünün tövqif [həbs] edilməsi ki, müsəlmanların ciddi protestoları sayəsində ingilis komandanlığı tərəfindən azad edilmişdirlər.

10) İncəsu köyü müsəlmanlarının ikinci briqada saldatları tərəfindən malların[ın] oğurlanması;

11) Müsəlləh [silahlı] olaraq iki Xındırıx və üç Ağdava müsəlman köylərinin yəğması;

12) Basyan qaçqınları öz yurdlarına qayıtdıqları zaman üzərlərinə təərrüz [hücum] edib bir nəfəri öldürmüşlərdir və yəğma etmişlərdir.

13) Aleksandropol şəhəri əhli Şahnalar köyündə yaşayan Məşhədi Haşımın yox olması;

14) Qarsdan Ərzuruma qayıdan qaçqınların əmvalının dördüncü alay saldatları tərəfindən qarət edilməsi;

15) Bütün nahiyədə külliyyətli surətdə qoyun və atların həcz [müsadirə] edilməsi;

16) Zaruşad və dairəsinin Camuk köyünün bombardmanı;

17) Qars şəhərində üç nəfər Barco köyü sakinlərinin qaib olmaları;

18) Qars şəhəri yaxınlığında Qalaköy kəndi əhalisindən iki kişi, üç qadının qaib olmaları;

19) Qars nahiyəsi əhalisinin atlarının alınması;

20) Gölə dairəsinin bombardmanı. Burada 15 min manat kantrobosya alınmışdır.

21) Soğanlıq dairəsinin 13 kəndinin təxribi və mallarının yəğma və qarəti;

22) Xorasan dairəsinin 23 kəndi dağılıb, bütün malları qarət edilməsi.

Hökumət bütün bu işləri açıq buraxaraq günahkarlar təcziyəsiz [cəzasız] buraxılmışlardır. Bundan əlavə, digər bir siyahı da – 1919-cu sənəsinin iyul ayından etibarən erməni qoşunları tərəfindən İrəvan quberniyasının Sürməli və Eçmiyədzin qəzalarında təxrib edilmiş və malları qarət olunmuş köylərin də adlarını havi [ehtiva edən] bir siyahı təqdim edilmişdir. Köylərin miqdarı doxsandır.

## ZƏNGƏZUR HAQQINDA

Zəngəzur fəlakətini, Zəngəzur müsibətlərini bilməyən, eşitməyən və bu hala qarşı ciddən mütəəssir olmayan mühitimizdə çox az adam fərz etmək olar. Mən buracıqda yalnız Zəngəzur yetimlərindən bəhs edəcəyəm.

Keçən sənənin həziranında [iyununda] vəhşət və quldur, yeganə cani, qatil Andranik ərlər və qəhrəmanlar meydanından qaçaraq xəstəlik mikrobu kimi kəndisini Zəngəzura soxdu və o gündən etibarən bu məsum məmləkətin həyat və ümranı [abadlığı] zəhərləndi.





Andranik bu vəhşi əməlində yalnız qalmadı. Zəngəzurda bəşəriyyət mikrobu daşnak cinayətkar firqə üzvlərindən bir çox qanlı əllər də ona ciddi müavinətdə bulundu. Kəndi səadətlərini təmindən aciz olduğu üçün bir çox məsumların səadətini məhvə çalışan bu firqənin üzvlərindən olan Zəngəzur ermənilərindən çoban Nikolay Osipov, Şirinyans, Papon və qeyriləri Zəngəzur müsəlmanlarını məhv və talan etməkdə Andraniki fərsəxlərcə geridə qoydular.

Zəngəzur müsəlmanları kəndi haqlarını müdafiə yolunda bu ac, səfil, haydud [quldur] orduya dövrə komandasını verdilər və onları təkrarən müsalihə və müsalimətə [barışıq və əmin-amanlığa] dəvət etdilərsə də, heyhat, nafe [faydalı] nəticələr vermədi.

Allah eşqinə, baxınız! Bir cəmiyyət ki, cümlə var-yoxlarını keçilərə yükləyib (Andranik gələrkən onun minlərlə təvabeyi [təbəəsi; adamları] səfalətlərindən dolayı yük və əşyalarını keçilərə yükləmişlərdi), uşaqlarını da batil və vahi [əsassız] bir təəssüb saiqəsi [səbəbi] ilə öz mehriban hökumətlərinə xəyanət edib, dağlar, dərələr aşıb Zəngəzura gələ, o cəmiyyətdə qeyrilərini rahat buraxmaq ümidi mümkünmü?

Xülasə, Andranikin makinalı tüfəngləri və dağ topları ilə Zəngəzurda həqiqi hesabla bir yüz on qəryə [kənd], müsəlman qəryəsi məhv oldu. Bu yüz on qəryədə müdafiədə bulunan erkəklərdən və məsum çocuqlardan və ismətli qadınlardan bir çox minlərlə müsəlman şəhid oldu. Bu həqiqi şəhidlərin minlərlə əziz övladı, istəkli və sevgili balaları yetim qaldı. İştə bəhs edəcəyim mətləb bu.

Eylül [sentyabr] ayı 5-ində bir çox intizardan sonra Zəngəzura "Zəngəzur mühacirlərinə müavinət heyəti" varid oldu [gəldi] və ciddi olaraq işə başladı.

General-mayor Talışınski təhti-rəyasətində [başçılığı altında] olan bu heyət ən əvvəl sıcaq qumlar üzərində, daş dibində, soyuq ağaclar altında olan yetimlərin halını düşündü. Düşündü də əməli icraata başladı.

Heyətin üzvlərindən olan Mustafa bəy Əlibəyov cənabları Zəngəzura vaxtilə bu sevgili balalardan təcili olaraq yüzlərlə cəm etdi və heyət tərəfindən Bakıya, yetimlər yurduna getmək üçün hazırladı.

Bu gün oktyabrın 3-də Mustafa bəy cənablarının təhti-siyanətində [himayəsi altında] olaraq Bakıya doğru yola çıxan yetimlər qafiləsini mən Zəngəzur qazısı Bəhlul Behcət bu mini-mini qardaş və bacılarımı müşayiət edərkən o məsum və məhzun cəmiyyəti bu sözlərlə vida etdim:

Ey vətənimin vaxtilə əziz, sevgili övladı! Siz ey millətimin gələcəkdə qəyur [qeyrətli], müntəqim [intiqam alan] balaları! Nədir bu hali-əsəf-iştimalınız [təəssüf doğuran halınız]? Nə olmuş sizə? Nərəyə gedirsiniz? Mən sizin bu halınızı görüb də nasıl təhəmmül edirəm [dözürəm]? Nərədə qaldı sizin o gözəl, səfalı yurdlarınız? bağlarınız, bostanlarınız? Hanı sizin o şəfqətli atalarınız, o sizdən bir ləhzə [bir an] ayrılmayan məhcub [həyalı] analarınız? Hanı sizlə daima çəmənlərinizdə oynayan yoldaşlarınız?

Həsənciyim, hanı Şəfiqəcik? Səkinəciyim, nərədədir Şövkət? Məgər onlar hələ daşlar arasından, ağaclar altından tapılmayıblar? Siz bir vaxtda əziz idiniz,

ehtiramlı idiniz. Şimdi sizi nə üçün vida etməyirlər? Məgər sizin o səadətli ailəniz tamamilə məhv oldu? Atanız, ananız düşmən atəşi ilə, balaca qardaşınız, bacınız da qorxudan yollarda tələf oldumu? Sizin bu halınıza qarşı nə deyə bilərəm?

Ey övladlarım, maraq etməyiniz! Atanız, ananız yox olsa da, (lillahilhəmd [Allaha şükür]) hökumətimiz var. Böyük ümmətimiz, millətimiz var. Sizi əmin, etibar və etimadlı bir əl vasitəsilə hökumətimizə əmanət verirəm. Məhzun olmayınız. Hökumətimiz, cəmiyyətlərimiz, bütün islam qardaşlarımız sizə ata və qardaş olacaq. Sizi bəsləyəcək, oxudacaq. Sizi gələcəkdə Azərbaycanımızın qəyur övladı olaraq hazırlayacaq.

Analarınız sizə ağlayammadısa da, şairlərimiz sizin bu halınıza ağlayacaq, sizə hailəli [faciəli, acı] mənzumələr ithaf edəcəkdir. Qəzetələrimiz sizə müavinət üçün bütün əfradi-millətimizi [millətimizin bütün fərdlərini] səfərbərliyə dəvət edəcək, mən də o zaman sizə imdad əli uzadan hökumətimizə, cəmiyyəti-xeyriyyələrimizə, sizə müavinət edən bütün əşxasın [şəxslərin] qabağında ehtiramən [ehtiramla] diz çökəcəyəm. Sizin namınıza vətənimiz haqqına ədayi-şükran edəcəyəm.

Ay, öpürəm sizi. Cənabi-Allah müininiz [köməyiniz] olsun.

*Zəngəzur qəzası:*
*Bəhlul Behcət əfəndi*

## İTTİHAD MƏKTƏBİ

Bu il İttihad məktəbi təzə varid olmuş [gəlmiş] şagirdlərlə məmludur [doludur]. Deməli, şagirdlərin sayı üç yüzdən ziyadə olub, onlardan ötrü də üç əlifba şöbəsi, iki də ikinci şöbə əlavə olaraq açılmışdır.

Digər tərəfdən, təzə intixab olunmuş [seçilmiş], ciddi surətdə çalışqan Əncüməni-Xeyriyyə [Xeyriyyə Cəmiyyəti] üzvləri tərəfindən müəllimlərin məişətini, cavan Azərbaycan hökumətinin edadi məktəblərə təyin etdiyi maaş qədər nəzərdə tutulub, eyni maaşı qət etmişlərdir [qərara almışlar].

Camaatımızın məktəbə olan rəğbətindən Əncümən [Cəmiyyət] üzvləri nəhayət dərəcədə maraqlanaraq, qət etmişlərdir ki, müəyyən vaxtadək nə qədər şagird gələrsə-gəlsin, qəbul olunub onlardan ötrü siniflər (klaslar) açılıb, müqtədir və təcrübəkar müəllimlər cəlb olunsun. Necə ki, bu sənə məşhur alman və fransız müəllimi müsyö Kyunin və rus müəllimi isə təzə açılmış gimnaziyanın müdiri Sipol və fars ədəbiyyatı ilə şəriət müəllimi Hacı müəllim cənabları və qeyri müəllimlər də dəvət olunmuşlardır. Və bu yaxın zamanda da təcrübəkar müəllimlər və imtahanlı mürəbbilərin İttihad məktəbi üçün Bakıya gəlişləri gözlənir.

Təzə intixab olunmuş Əncüməni-Xeyriyyənin hümməti-ciddiyyəsi sayəsində xarabazara dönmüş məktəb binası təcili surətdə təmir edilib dərs vaxtınadək hazırlanıbdır. Ondan masiva [ondan əlavə], təftişiyyəsi (komissiyası), nəhayət, ciddü cəhdlə gecə-gündüz beduni-aram [aramsız] çalışaraq on illərlə cəm olunmuş məktəb əşyasını yığıb, əsamisi [adları] ilə bərabər mədaxil və məxaricini təyin etməkdədirlər. Ümid ediriz, cavan Əncümən heyətinin üzvləri və sədri Ağamirzə Əlihəsənov cənablarının xalis və həqiqi çalışqanlığı sayəsində bu sənə iranlıların yeganə ümidgahı, maarif mənbəyi İttihad mədrəsəsi hər bir cəhətdən təmin olunsun. Bəzi yetim və bikəs şagirdlərə libas və ayaqqabı əta olunmasını da gələcəkdə onlardan ümid ediriz ki, qabaqdakı qışın soyuğundan məhfuz qalsınlar [qorunsunlar].

İttihad məktəbində oxuyan şagirdlər bunu bilməlidirlər ki, Nikolay zamanında bir məktəbdə türk lisanı layiqincə oxudulmaqda, İttihad məktəbində türk və fars lisanına nəhayət dərəcədə əhəmiyyət verilirdi. İndi dəxi islam məmləkəti olduğu üçün dəxi də əhəmiyyət və ciddiyyəti-kamilə ehraz etmişdir [qazanmışdır]. Ona binaən [ona görə], hər bir müsəlman ata öz övladını İttihad məktəbində tədris etdirməyə iftixar etməlidir.

Yaşasın kəndi millətinə təzədən ruh verən maarif xidmətçiləri!

*Mirzəağa Vəlizadə*

## BAKI XƏBƏRLƏRİ

### Quba qəzasında qaçqınlar

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən Quba qəzasına göndərilmiş nahiyə müfəttişi Nəzarətə məlumat vermişdir ki, Dağıstandan varid olan [gələn] qaçqınların miqdarı gündən-günə artmağa və hal-hazırda Quba qəzası sərhədi boyunda qaçqınlarla məmlu [dolu] olmağa görə, bunları Qızılburuna qədər qəzanın hər yerinə təqsim etmək [paylamaq] lazımdır. İşbu məsələni Daxiliyyə naziri Bakı qubernatoruna həvalə etdiyindən, qubernator böylə rəy vermiş ki, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti qaçqınları ərzaq cəhətincə təmin edərsə, qaçqınları Quba qəzasının hər yerinə təqsim etmək olar. Çünki bunlarsız da Quba qəzasında ərzaq azlığı hiss edilir.

### 15 polis nəfəri

Ticarət səhmdaran [səhmdarlar] şirkəti "Rıbak" dəniz kənarında Yalama, Xudat və Xaçmaz istasyonlarında aldığı balıqları yığıb göndərən fəhlələri mühafizə üçün Bakı qubernatorundan üç ayın müddətinə 15 nəfər polis strajniki istəmişdir. Bu şərtlə ki, şirkət polislərin hər birinə ayda 1200 manat maaş verəcək. Bu xüsusda qubernator Daxiliyyə nazirinə müraciətlə böylə rəy vermişdir ki, polis xidmətçiləri az olduğu üçün 15 nəfərin buraxılması polis işlərinə xələl yetirə bilər. Binaənileyh [ona görə], şirkətin ricasına görə, 15 nəfər xidmətçi artırıldıqdan sonra şirkətin ricasını qəbul etmək olar.

### Elmi sinema

Mərkəzi Valideyn Şurası tərəfindən cümə günü 24 təşrini-əvvəldə [oktyabrda] iki dəfə sinema şəkli göstəriləcəkdir. Birinci dəfə başlanacaq saat 11-də, ikinci dəfə saat 12 yarımda. Yekşənbə [bazar] günü 26 təşrini-əvvəl başlanacaq saat 4-də həmin məramnamə [proqram] üzrə.

### Şamaxıda

Altı ay əqdəm [qabaq] Şamaxı şəhərində ərzaq anbarı qaraqolu gecə qapıda durarkən görmüş ki, erməni kilsəsi yanında iki nəfər yer qazır. Qaraqol irəli getdikdə bunlar qaçmışlar. Məlum olmuş ki, yerdə iğtişaş vaxtı oğurlanmış əşya bas-

dırılmış imiş. Qaraqol gedib uryadnikə xəbər verdikdə uryadnik bir qədər strajniklə gəlib əşyanı çıxarmışdır. Bir çox ev əşyası, qadın və kişi əlbisəsi, çadırşəblər [çarşablar], 75 dənə xalı və başqa şeylər imiş. O vaxtdan bəri Şamaxı qəza qaimməqamı [qəza rəisi] əşyanın sahiblərini arayırmışsa da, fəqət Nisbət Məşhədi Heydər qızı nam [adlı] bir qadın əşyaya baxdıqda bir qaç dənəsinə sahib durmuşdur. Qalan əşyanın sahibləri bulunmadığından, qəza qaimməqamı Bakı qubernatoruna xəbər verərək əşya qubernatorun binagüzarlığına [sərəncamına] keçmişdir.

**Hammal itmişdir**

Məhərrəm ayının 25-də Hacı Seyid Hüseyn Mirqafar oğlu nam bir nəfər Krasnovodskdan gəlib körpüdə əşyasını bir nəfər tanımadığı hammala [hambala] verir ki, Mixaylovski xəstəxanaya aparsın. Özü də hammal ilə bahəm getmişdir. Olqinski küçədə Parapetə yaxınlaşdıqda məzkur [deyilən] Seyid hammalı itirmişdir. Hammalın, bəlkə, ondan əvvəl getmiş ola biləcəyi ehtimalı ilə sürətlə xəstəxanaya gedib hammalı bulammamışdır. Çıxıb küçələri aramışsa da, yenə hammalı bulammamışdır.

Hammal götürdüyü əşya bunlardır: nəlbəki 66 dənə, lil 3 girvənkə, böyük qıfıl iki dənə, sarı parça iki arşın, balınc bir dənə, yorğan bir dənə, döşək bir dənə, sarı əba bir dənə, un kisəsi dörd dənə, çaydan bir dənə və bağlama bir dənə. Seyid Hüseyn Mirqafar oğlu biçiz [yoxsul] və müstəhəq [ehtiyacı olan] bir şəxs olduğu üçün bu hammalı kim tanıyırsa və ya əşyanı kim görüb xəbəri varsa, idarəmizə xəbər verməyi mətlubdur [tələb olunur].

* * *

Bu gün təşrini-əvvəlin 24-də axşam saat 4-də İranlıların Maarif Cəmiyyətinin yeni intixab edilmiş [seçilmiş] idarəsinin birinci iclası təyin ed[il]mişdir.

Məsaili-yövmiyyə [gündəlik məsələlər]:

1) Sədr, müavin, katib və xəzinədar intixabı;

2) Gecə məktəbi xüsusunda;

3) Məsaili-cariyyə [Cari məsələlər].

**Bələdiyyə İdarəsi**

- Bələdiyyə rəisi bütün şəhər idarəsi şöbələrinə müraciətlə məlum etmişdir ki, son zamanlar şöbələrə göndərilən bir çox təliqələrə [rəsmi məktublara] vaxtlı-vaxtında cavab verməyirlər. Hətta Nəzarətlərdən gələn kağızlara belə cavab verməməkləri məlum olmuşdur. Rəis rica etmişdir ki, minbəd [bundan sonra] xüsusən Nəzarət və qradonaçalstva təliqələrinə vaxtlı-vaxtında cavab verməlidir.

- Dövləti Mətbəə xidmətçiləri Səhhəti-Ümumiyyə Nəzarətindən, Bələdiyyə İdarəsi xəstəxanalarından məccani dəva [pulsuz dərman] və əlac buraxılması haqqında lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdilər. Bələdiyyə İdarəsi Səhhəti-Ümumiyyə Nəzarətinin işbu təliqəsinə cavab vermişdir ki, şəhər ixtiyarındakı dəvanın miqdarı məhdud olduğu üçün təşəbbüsat rədd edilir.

- Bələdiyyə İdarəsi Daxiliyyə Nəzarətinin təliqəsinə cavabən xəbər vermişdir ki, şəhər və Çornı-qorod dairələrindəki məmurinə [məmurlara] Azərbaycan dəmiryolları truboprovodu [boru xətti] təmizlənməsinə mümaniət [maneçilik] edilməməsi haqqında düsturüləməl [təlimatnamə] verilmişdir. Şəhadətnamə verilmək məsələsi isə şəhərə olan verginin verilməsindən sonra həll olunacaqdır.

**Birjada**

Kerenski minlik 1.015-1.020 manata qədər, 250-lik faizsiz və xırda kəndi qiymətindən on faiz əskikdir. Nikolay 5 yüzlüyü 1.600-1.800 manata qədər, yüzlüyü 220-230 manata qədər və xırdası 40-80 faizə qədərdir. Osmanlı kağız lirəsi 200 manat və Zaqafqaz bonu 1.000 manata 15 manat fəzlədir. Osmanlı altun lirəsi 880 manat, altun onluq 1.100 manat, imperial 800 manat və Otriş [Avstriya] altunu 2.050 manatdır. Gümüş manat 75 manat və xırda gümüş para 31 manatdır.

**PARLAMAN KOMİSYONLARINDA**

**Edadi məktəbi**

Göyçay şəhərində bir edadi məktəb açılması haqqında Maarif Nəzarətindən Parlamanın Maliyyə və Büdcə Komisyonuna varid [daxil] olmuş qanun layihəsi qəbul olunmuşdur.

**Torpaq tənzimatı məsarifi**

Ziraət və Əmlak Nəzarətindən torpaq tənzimatının 1919-cu il üçün ştata və məsarif smetası haqqında varid olan qanun layihəsi Parlamanın Maliyyə və Büdcə Komisyonunda qəbul edilmişdir.

**MÜSTƏHLİKİN [İSTEHLAKÇILAR] HƏYATINDAN**

**Azərbaycan Kredit, İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqından**

Güc birlikdədir!

Xalq maliyyəsi lazımlı yerdə saxlanılarsa, xalq təsərrüfatı da nəşvü-nüma [inkişaf] edəcəkdir.

Azərbaycan Etibar, İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqı 15 təşrini-əvvəl 1919 tarixindən fəaliyyətə başlamışdır. Qanunnamənin 27, 28 və 29-cu maddələrinə məbni [əsasən], İttifaqın sərmayəsi daxil haqqından (500 rublə), pay və mənfəətdən saldırılmış məbləğdən hasil olur. Hər pay 2000 rublədir.

İttifaqa hamı etibar, istiqraz və əmanət cəmiyyətləri və özgə kooperativlər üzv yazıla bilərlər. Hesabati-cariyyə və xüsusi əşxasdan [şəxslərdən] və müəssisələrdən tövdiat [əmanətlər] qəbul edilir. Verilmiş məbləğlər qeyri-məhdud surətdə və hər bir vaxtda nağd olaraq qaytarılır. İttifaqın kontoru Karantinni küçədə 84 nömrəli evdə hər gün səhər saat 10-dan 12-dək və axşam 5-dən 7-dək açıqdır.

- Azərbaycan Kredit, İstiqraz və Əmanət Cəmiyyətləri İttifaqı idarəsi "Kooperasiya"ya təklif etmiş ki, tez zamanda Birinci Azərbaycan Kooperativlər Qurultayı Şurasını dəvət etsin. Şura iclaslarında hökumət və ictimai müəssisələr nümayəndələri dəxi iştirak edəcəkdirlər.

- Eyni idarə qət etmişdir ki, hər bir fəaliyyətində Azərbaycan hökuməti Ma-

liyyə Nəzarətinin Etibar və Əmanət Sandıqçaları İdarəsi ilə sıxı rabitədə bulunsun və idarə rəisi [Nəsir bəy] Tağıyev cənablarını İttifaq İdarəsi iclaslarına dəvət etsin.

- Yenə həman İttifaq yaxın zamanda Azərbaycan Hökumət Bankasına və Moskva Xalq Bankası Tiflis şöbəsinə müraciətən İttifaqa kredit açılmasını xahiş edəcəkdir.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

**"Müsavat"da**

"Müsavat" firqəsi Azərbaycan Məclisi-Müəssisan seçkilərinin yaxlaşması münasibətilə hal-hazırda namizədlər siyahısı tərtib verməklə məşğuldur. Şimdiki Məclisi-Məbusan əzasından [üzvlərindən] bir çoxunun adı həman siyahıya da daxil olur. Ehtimal var ki, başqa firqələrdən və Parlaman fraksiyalarından "Müsavat" ilə bloka girənlər olacaqdır.

**Firqə qurultayı**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat"ın mərkəzi və Bakı komitələrində çoxdan bəri (hələ xalq heyəti zamanında) firqə qurultayı çağırılmasına lüzum hiss edilərək, bu uğurda təşəbbüsata girişmək lazım olduğu söylənməkdə idi. Şimdi bu fikir qövldən feilə [sözdən işə] çıxmaq üzrədir. "Müsavat" mərkəzlərində firqə qurultayı dəvətinə hazırlanırlar. Qurultayın proqramı tərtib verilmişdir. Seçki qayda və norması tərtib verilir. Eşitdiyimizə görə, firqənin Baş Komitəsi qurultaya təqdim üçün yeni bir proqram hazırlayır. Bu surətlə, firqə proqramında bəzi təbəddülat [dəyişiklik] icrası gözlənir.

**Müsalihə və Mürafiə şöbəsi**

Rotşildin mədənlərində işləyən Abdulla Əsədulla oğlu xidmətindən ixracı cəhətinə "Müsavat"a müraciətdə bulunduğu üçün firqənin Müsalihə və Mürafiə [Barışıq və Məhkəmə] şöbəsi məzkur [deyilən] fəhləni kəndi xidmətinə təyin etdirmişdir.

Təşrini-əvvəlin [oktyabrın] 21-də Məhəmməd Məhəmməd oğlu "Müsavat"ın Müsalihə və Mürafiə şöbəsinə şikayət etmişdir ki, məzkur Məhəmməd Sentrodoma un parası verib aldığı qəbzi qaib eylədiyi cəhətlə pulunu verməyirlər. Firqənin Müsalihə və Mürafiə şöbəsi "Müsavat"ın Sabunçu şöbəsi vasitəsilə Məhəmməd Məhəmməd oğlunun paralarını alıb kəndisinə vermişdir.

**Nümayəndə**

Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Cəmiyyəti-Xeyriyyədə bu gün saat 11 iclasına bir nümayəndə dəvət olunduğuna görə Bakı Komitəsi Piri Mürsəlzadəni nümayəndə intixab etmişdir [seçmişdir].

## CƏMİYYƏTİ-XEYRİYYƏDƏ

**İki yetim qız**

Zəngəzur qaçqınlarından yetim Xədicə Oruc qızını Bakı əhlindən Kərbəlayı Mikayıl Hacı Baxış oğlu Şabanov və Güllü Əlimirzə qızı nam [adlı] digər birisini də Məşhədi Mirqasım Yaqubzadə evində saxlamaq üçün Cəmiyyəti-Xeyriyyədən almışlardır.





**Türk qaçqınları**

Türk qaçqınlarından Münasib Molla İbrahim oğlu, Əbdürrəhman Mustafa oğlu, Bayram Məhəmməd oğlu və Həmid Xərif oğlu Axısxaya və Nuri Mustafa oğlu Batuma göndərilmələri üçün Cəmiyyəti-Xeyriyyəyə müraciətdə bulunmuşdurlar. Cəmiyyət bunlara bilet və məxaric üçün 750 manat pul vermişdir.

**Cümə günü iclası**

Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi idarəsinin qərarı mövcibincə [qərarına əsasən], qaçqınları təmin etmək üçün hər firqə və cəmiyyətdən bir nümayəndə dəvət edərək bir komisyon təşkil etmək üçün çaharşənbə günü saat 11-də dəvət olunmuş iclasa Bələdiyyə Səhiyyə şöbəsi, Ziyalılar Cəmiyyəti, Bitərəflər Cəmiyyəti, "Əhrar" firqəsi və "Hümmət" firqəsindən nümayəndə gəlmədiyi cəhətlə ikinci dəfə olaraq iclas bu gün ayın 24-də gündüz saat 11-ə dəvət olunmuşdur. Bu iclasa İran konsulxanasından, "Müsavat" firqəsindən, "İttihad" firqəsindən, "Əhrar" firqəsindən, "Hümmət" firqəsindən, Bakı Ünas [Qadınlar] Cəmiyyəti-Xeyriyyəsindən, Ziyalılar və Bitərəflər Cəmiyyətindən və Bələdiyyənin Sanitarnı şöbəsindən birər nümayəndə dəvət olunmuşdur.

## AZƏRBAYCANDA

**Qarabağdan**

Qarabağda erməni-müsəlman əlaqəsi düzəlib ara sakitlik olan kimi həyati-ictimai və ümuri-dövləti [ictimai həyat və dövlət işləri] də öz adi yoluna düşüb getməyə başlayıbdır. Ticarət və hirfət [peşə] işlərində də bu az zamanda böyük tərəqqi və hərəkət müşahidə olunur. Məkatib və mədarisdə [məktəblərdə və mədrəsələrdə] də dərslər adi üzrə başlanıb tədris öz yolu ilə gedir.

O cümlədən:

-1-

Qarabağ general-qubernatorunun əmri ilə bir nəfər müsəlman və bir də ermənilərdən olaraq Qubernator Şurası üzvləri ikişər erməni yerlərinə gedib oralarda yeni məhəlli hökumət məmurları intixabatına şüru edilmişdir [seçkilərinə başlanmışdır].

Şura üzvləri erməni kəndlərinə gedib təbliğatdan sonra yeni məmurlar seçməyi başlayıblar. Hələlikdə əlimizdə olan məlumat Şuşa uyezdində Xaçın mahalına dairdir. Bu mahala Şura üzvləri Kərim bəy Qalabəyov ilə doktor Yeramişov getmişdilər. Bunları Daşbulaq kəndində camaat ağsaqqalları qarşılayıb, çox artıq hörmət və cəlal ilə kəndə apardılar. Kənddə qonaqların hörmətinə iki qoyun kəsib qonaqlıq etmişlər. Nahar zamanında Azərbaycan Cümhuriyyətinin payidar [əbədi] olmasına və Qarabağ general-qubernatorunun ömrünün uzun olmasına nitqlər deyilib qədəhlər içmişlər. Bu minval, Xaçın dairəsində olan bütün kəndləri komissiya gəzib, məmurlar təyin edib, oktyabrın 2-də Şuşa şəhərinə qayıtmışlar.

* * *

Məkatib işləri də öz qaydası ilə yola düşübdür. Şuşa, Ağdam, Bərdə və sairlərdəki məktəblər bildirki kimi vaxtında açılıb, uşaqlar yığılıb dərsə şüru ediblər

[başlayıblar]. Amma erməni kəndlərindəki məktəblərin müəllimləri və sair qulluqçuları keçən ildə nə Azərbaycan xəzinəsindən məvacib almağa haqları olub və nə də ermənilərin milli komitələrində o qədər qüvvələr olub ki, onların məvacibləri verilsin. İndi erməni mahalları da Azərbaycan təbəiyyətini [vətəndaşlığını] qəbul etmələri üçün Azərbaycan xəzinəsi onların keçənilki məvaciblərini verməkdədir. Bu ilin başından dərslər o məktəblərdə də başlanıb davam etməkdədir.

Ancaq bəzi məktəblər var ki, oralardakı müəllimlərin bəziləri bugünkü hallarına keçinəmməyib, Azərbaycan bayrağı altında işləməyi uda bilməyib istefalarını vermişlər. Böylə cənabların birinciləri Şuşa Realnı məktəbinin direktor və inspektorudurlar. Türk-Azərbaycan qulluqçusu olmağını öz vicdan və namusları qəbul etmədiyi üçün direktor Petrov və inspektor Atmanaki öz vicdanları qarşısında məsul olmamaq qəsdi ilə istefalarını verib məktəbdən xaric olublar. Əslən bu, layiqi-ibrət bir hərəkətdir. Vicdan sahibləri böylə də olmalıdırlar.

Lakin bir iş var ki, Petrov ilə Atmanakilərin vicdan və namuslarına müvafiq görünməyir. O iş budur ki, Petrov və Atmanaki bütün yay aylarını Azərbaycan xəzinəsindən alıb da, amma dərs ilinin başında məktəbi sahibsiz qoyub, ancaq bu vaxt istefalarını vermək nə vicdana və nə də adi namus qanununa müğayir [zidd] görünür.

Nə isə, nə qədər Petrovlar, Atmanakilərin vicdanları tezraq oyanarsa, o qədər də bizim işimiz tərəqqi edər.

Petrovun yerinə Şuşada məşhur Şahnazaryan və Atmanakinin də yerinə Səməd bəy Ağayev təyin olunublar.

* * *

Ticarət işlərində də həmçinin tərəqqi müşahidə olunmaqdadır. Bu saat Qarabağda meyvəcat və baxüsus [xüsusilə] üzüm ticarətinin mövsümüdür. Qarabağda bir çox üzüm sıxan (şərabçı) zavodları vardır. O cümlədən Ağdamda, Bərdədə, Yevlaxda, Xanabadda böyük şərab zavodları vardır. Bunların çoxusu keçən illərdən bəri bağlanıb iş görməyirdilər. Amma indi sakitlik düşən kimi zavod sahibləri öz vətənlərinə qayıdıb işlərinə şüru ediblər. Üzümün pudu 35 ilə 50 manat arasındadır. Ağdamdakı Aronov və Xublarov zavodları sabiq illər kimi böyük dairədə işlər başlayıblar. Ticarətin başqa dairələrində də böyük tərəqqi vardır.

*Məhəmməd Sadıq [Aran]*

**Gəncədə Kəndçi və Əkinçi İttifaqı**

Gəncədə Kəndçi və Əkinçi İttifaqı Komitəsi təşəkkül edib ibrazi-fəaliyyət etməkdədir [fəaliyyət göstərməkdədir]. Keçənlərdə Kəndçi və Əkinçi İttifaqı Mərkəzi Komitəsinin xüsusi iclası olub aşağıdakı məsələlərə baxılmışdır:

Müzakireyi-yövmiyyə [gündəlik müzakirə]:

1) Kəndçi və Əkinçi İttifaqının təşkili barəsində;

2) Hərbiyyə məmurları tərəfindən "Sənət" məktəbinin tutulması;

3) Zəyəm nahiyəsi müdiri müavininin namünasib hərəkatı;

4) Gəncə qəzası məktəbləri və müfəttişi;





5) İttifaqa Maliyyə Komissiyası təşkili;

6) Zemstvo [yerli özünüidarə qurumu].

İclas Məhəmmədbəyov [Əliş bəy] sədarəti ilə açılır. Katib Talıb Məşhədi Cəfər oğlu seçilir. Məsaili-yövmiyyənin [gündəlik məsələlərin] tərtibi qəbul olunur.

Qərarlar:

1) Əvvəlminci məsələ müzakirə olunur. İttifaqın təşkili Parlamana, nazirlərə, fraksiyalara, vali və qəza qaimməqamlarına [qəza rəislərinə] rəsmi surətdə xəbər verilməlidir.

2) Sənət məktəbi barəsində Hacı Molla Əhməd Hacı Piri oğlu məlumat və izahat verir. Dörd sənədən bəri məktəb qapandığı halda, lakin məsrəfin köylülərdən yenə alınmaqda davam etməsi bəyan edilir. Bununla belə, kəndlilər məktəbdən fayda görməyirlər.

Müzakiratdan sonra Hərbiyyə nazirinin Gəncədə olmasına binaən [görə], üç kişidən ibarət bir komisyon seçilir ki, məzkur [deyilən] məktəbə dair nazir həzrətləri ilə mülaqatda [söhbətdə] bulunsun.

Heyəti-vükəla [Nazirlər Kabineti] rəisinə, Maarif nazirinə və Azərbaycan Müəllimlər İttifaqına da bu barədə xəbər yazılması qət olunur.

Komisyon üzvləri: Əliş bəy Məhəmmədbəyov, Hacı Əhməd Əliyev və Aslan Kərbəlayı Əsgər oğlundan ibarət olur. Hərbiyyə nazirindən sonra vali ilə də görüşüləcək.

3) Zəyəm nahiyəsi müdir müavininin əhali arasında ixtilafa bais olacaq hərəkatda bulunması cəhətlə Kəndçi və Əkinçi İttifaqı tərəfindən bir təkdirnamə [məzəmmətnamə] müavin əfəndiyə göndəriləcəkdir.

4) Müzakiratdan sonra Gəncə xalq məktəbi müfəttişi ilə kənd xalq məktəbləri müfəttişinin ayrı olması lazım gəldiyi qərara alınır. Gəncə qəzası geniş olduğundan və məktəblərin parlaq aparılması üçün müfəttişin ayrı olması lazım gəlir. Buna binaən lazımi yerlərə müraciət ediləcəkdir.

5) On bir kişidən ibarət olmaq üzrə Maliyyə Komissiyası kəndlilərdən seçiləcəkdir. Axırıncı məsələ gələcək iclasa qalaraq iclas qapanır.

*İttifaq sədri:*
*Ə[liş] Məhəmmədbəyov*
*Katib: Talıb Məşhədi Cəfər oğlu*

**Salyan edadiyyə məktəbi və maarifimiz**

Altı ildən bəri güşad olunub [açılıb] bərdavam olan edadiyyəmiz neçə dəfə əldən-ələ keçmiş, neçə cür simalar görmüş, hər il bir müdir gəlib artıq dayanammadığı üçün bu maarif çeşməmiz bulanıq və artıq ölümcül bir surətdə sürünürdü. Hətta qətiyən sönəcəyinə ümid olunarkən, Şamaxı şəhərinin nəcib simalarından Məhəmməd Əmin bəy [Ağa Əli oğlu] Əfəndizadə həzrətləri müdir təyin olunar.

Əlbəttə, məlumdur, əldən-ələ düşən, müxtəlif üzlər görən bir məktəb nə halda olar, mütəallimlərin [şagirdlərin] əxlaqına nə dürlü təsir edər.

Bahəməin [bununla belə], bu ağır vəzifəni Əmin bəy cənabları dəröhdə edib də [öhdəsinə götürüb də], çox tez zamanda asari-tərəqqi göstərdi və gələn gündən etibarən mütəmadiyən [daimi olaraq] çalışmaqda, çabalamaqdadır.

Bu il edadimiz məktəblər sırasında birincidir desəm, xəta etməmiş olaram. Mütəallimlər öylə həvəs və şövqlə dərsə başlayıblar ki, təsviri qeyri-mümkün. Heç bir müdirdə böylə həvəs görmədiyim kimi, mütəallimlərə də təsadüf etmədim. Müəllimin yoxluğu, təlimə dair şeylərin yoxluğu, binanın məktəbə məxsus olmamazlığı bir surətdə yenə məktəbimiz birinci və ən mümtaz [seçilmiş] məktəbdir.

Bu halda 9 sinifdə dərs aparılır. 300-ə qədər mütəallim var. Nə qədər mütəallim gəlirsə, hamısı qəbul olunur. Yəqin ki, bu da müdirin hümmət və çalışqanlığındandır.

Eşitdiyimizə görə, guya müdir əfəndi çox-çox xəstə olduğundan və Salyanın badü həvası [ab-havası] ona müvafiq gəlmədiyindən, gələcəkdə buradan getmək istəyir. Bunu yəqin bilməli, maarifə alışmış Salyan əhli heç vaxt razı olammayacaq və böylə müdir görəmməyəcəyindən, qətiyyən onun getməsinə mane olacaqlardır.

Aşkara görülür, Əfəndizadə cənabları gedərsə, köhnə hamam, köhnə tas müfadınca [mənasına uyğun olaraq], yenə məktəbimiz qədim tərzində olacaqdır. Gedərsə, məktəb bülbüllərimiz başsız və qönçəsiz qalacaqları bədihidir [aşkardır].

*"Ey toxumpaşi-məzrəayi-elmü-mərifət,*
*Getsən, bütün xarab olacaq toxmi-məs'ədət"*

Möhtərəm Əfəndizadənin bu təşəbbüsatı, bu çalışqanlığı qarşısında təşəkkürlər edib, ağır zəhmətlərini təqdir edib də, onun o yorulmaz əzəlatının [əzələlərinin] salim olmasını diləriz.

*Məhəmmədəli Şükürbəyli*

## GÜRCÜSTANDA

**Gürcüstan və Ermənistan**

Srağagün Gürcüstan ilə Ermənistan arasında olan sərhəd haqqında Gürcüstan Xariciyyə Nəzarəti imarətində bir şura vaqe olmuşdur.

**Yeni 500 manatlıqlar**

Gürcüstan hökuməti bu yaxınlarda 500 manatlıq bonlar buraxmaq fikrindədir. Beşyüzlüyün rəsmi rus beşyüzlüyündən əxz edilmişdir.

**Suxum üsyanı**

Xalq qvardiyası Baş ərkani-hərbində [qərargahında] Suxum üsyanına dair böylə bir təfsilat alınmışdır:

Üsyan axşam saat 9-10-da başlanmışdır. 7-ci tabor və 3-cü bölük üsyan etmişdir. Qalanları təşviqat və təbliğata baxmayaraq, onlara mülhəq olmamışlardır [qoşulmamışlar].

Atəş səsi eşidilən kimi qışlalara [kazarmalara] zirehli avtomobil yaxınlaşaraq havaya pulemyotdan bir neçə atəş açmışdır. Bir lenta boşalıncaya qədər üsyançılar özlərini itirmişlərdir. Onlar öz yoldaşlarını üsyana iştirak etmək məqsədilə onları güllələməyə başlamışlardır. Lakin bir nəticə hasil olmamışdır.

Üsyançı tabor topları şəhərə tərəf çevirir, o vaxta top başında əyləşmiş olan hətta bolşeviklər belə açarları toplardan çıxardaraq fəlakətə yol verməmişlərdir.

Təğyiri-libas [libaslarını dəyişdirmiş] etmiş və iğtişaşı idarə edən macəracuçular [avantüristlər] müsəlləh [silahlı] toqquşmanın əvvəlində belə pərakəndə edilmişlərdir. Onlardan birisi yaralanmışdır.





Zirehli avtomobilin gəlməsindən bir az keçmiş süvari divizionu və Suxum qvardiyası dəstəsi gəlmişdir.

Atışma üç saat yarım davam etmişdir. Sabahı İngiltərə krauzerindən [kreyserindən] qaraya [quruya] bir qədər əsgər çıxarılmışdır. Bunlar qaradan bir tərəfə getməmişlərdir.

İngilislər Daxiliyyə komissarı Lordkipanidze təhti-idarəsində [idarəsi altında] iğtişaşın yatırılması üçün lazımi qədər qüvvənin olduğuna inanaraq, krauzer Batum tərəfə yollanmışdır.

**Motosiklet**

"Moto-Dyo" firmasından hər bir əsləhəsi [ləvazimatı] və yerişi ilə satılır.

Nikolayevski küçədə nömrə 18, "Təbriz" mehmanxanasının kontoruna müraciət etməli.

*11476*

Gəmi mexanikləri olmaqdan ötrü imtahanlara hazırlaşmaq üçün həmin noyabr ayının 1-də Gəmi Mexaniklər məktəbində kurslar açılır. Arzu edənlər məktəbin idarəsinə ərizə verməlidirlər.

*11477*

***Müdir:***
***Hacıbəyli Üzeyir***

## QEYD VƏ ŞƏRHLƏR

**Teleqraf xəbərləri**

səh. 465. "Peti Parizyen" [Le Petit Parisien]: Parisdə 1876-1944-cü illərdə nəşr edilən gündəlik fransız qəzeti.

səh.466. "Teşe": Polşanın şimalında Tçev [Tczew] şəhəri nəzərdə tutulur.

**Sülh ətrafında**

səh. 466. "Tan": 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik "Le Temps" [Le Temps] qəzeti nəzərdə tutulur.

**Qəzetələrdən**

səh. 467. "Çrezvıçayka": Ümumrusiya Əksinqilab və Sabotajla Mübarizə Fövqəladə Komissiyası.

səh. 468. "Matin" [Le Matin]: 1882-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

**Dağıstanda**

səh. 469. "Teymurxanşura": Rusiyada, indiki Buynaksk şəhəri.

"Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

**Müxtirə**

səh. 473. "Ermənistan Cümhuriyyəti hökumətindən bunları tələb etməli": bundan sonrakı bəndlər ərəb əlifbasının hərf sırasına görə əlif, be, te... kimi işarələnmişdir.

"Əhalinin hankı qeyri-qanuni fəaliyyətləri...": qəzetdə "hankı" yerinə "hər hankı" getmişdir.

səh.474. "kantrobosya": bu sözə məna vermək mümkün olmadı.

**Azərbaycanda**

səh. 484. "Ey toxumpaşi-məzrəayi-elmü-mərifət, Getsən, bütün xarab olacaq toxmi-

məs'ədət": "Ey elm və maarif tarlasına toxum səpən; getsən, səadət toxumu bütünlüklə məhv olacaqdır."

**Gürcüstanda**

səh. 485. "Daxiliyyə komissarı Lordkipanidze təhti-idarəsində": Gürcüstanın Daxili İşlər naziri Noy Ramişvili idi. İvan Nestoroviç Lordkipanidze Ədliyyə, daha sonra Nəqliyyat naziri olmuşdur. Qriqori Spiridonoviç Lordkipanidze isə müxtəlif vaxtlarda Təhsil naziri və Hərbi nazir olmuşdur.





**Bazar, 26 oktyabr 1919-cu il, nömrə 305**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Yekşənbə, 1 səfərül-müzəffər sənə 1338. 26 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## SİRK "MODERN"

Yekşənbə günü oktyabrın 26-nda 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Kalişeviç – Naməlum.

2-nci: Staroşvili – Oleynikov.

3-ncü: Qara Maska – Karl Muznik.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Məşhur italyan müdiriyyətinin benefisi hazırlanır (Havada uçan adamlar).

*11480*

## ELAN

1919-cu sənəsinin 22 eylülündən [sentyabrından] sonra "Elektriçeskaya sila" səhmdaran [səhmdarlar] cəmiyyətinə işıq buraxılması haqqında istida [ərizə] verib, şəhərin Cəmiyyətlə əqd etdiyi [imzaladığı] müqavilənamənin 8-ci maddəsi mövcibincə [maddəsinə əsasən], iki həftə müddətində cavab alammamış və məzkur [deyilən] 22 eylülündən sonra istidaları qəbul olunmamış əfəndilərə Bələdiyyə İdarəsi elam edir [bildirir] ki, kəndi ünvanları ilə bərabər Bələdiyyə İdarəsi naminə məlumati-atiyyəni havi [aşağıdakı məlumatı ehtiva edən] istida göndərsinlər:

1) "Elektriçeskaya sila" cəmiyyətinə işıq istəyəcək haqqında verilən istidanın zamanı və;

2) İsitidada nə miqdarda lampa göstərilmişdir?

*T-301*

## QİSMİ-RƏSMİ
### [RƏSMİ HİSSƏ]

Azərbaycan Məşixəti-İslamiyyə [Şeyxülislamlıq İdarəsi] sədrləri biz müfti və şeyxülislam, 24 təşrini-əvvəl [oktyabr] 1919 tarixindən hüdudumuz daxilində mövcud ümuri-ruhaniyyəni [din işlərini] təftiş və islah məqsədi ilə Bakıdan əzimət edib [yola düşüb], gəlincəyə idarədə yerimizi idarə etməyə üzvlərdən Hacı Şeyx Həsən Axund Mollasadıqzadə və Əbdülxalıq əfəndi Əfəndizadəni təyin ediriz.

*Məşixət sədrləri:*
*Axund Ağa Ağaəlizadə,*
*Mustafa Əfəndizadə*